# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 328** **Bakı şəhəri, 30 oktyabr 2021-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında icarəsinə yol verilməyən müəssisələr haqqında" 1992-ci il 10 avqust tarixli 431 nömrəli, "Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsini gücləndirmək məqsədi ilə əlavə qayda və əsasnamələrin təsdiq edilməsi haqqında" 1993-cü il 9 mart tarixli 140 nömrəli, "Azərbaycan Respublikasının Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin məsələləri haqqında" 1993-cü il 1 oktyabr tarixli 527 nömrəli, "Azərbaycan Respublikasında əlillərin problemləri üzrə kompleks proqramın həyata keçirilməsi haqqında" 1994-cü il 10 may tarixli 185 nömrəli, "Azərbaycan Respublikası DİN-nin Müəssisədənkənar Mühafizə xidmətinin Əsasnaməsi haqqında" 1994-cü il 17 may tarixli 197 nömrəli, "Gənclərin ibtidai hərbi hazırlıq Əsasnaməsinin təsdiq edilməsi haqqında" 1998-ci il 29 may tarixli 119 nömrəli və "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

"Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında", "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" və "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 302-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası vətəndaşlarının alternativ xidmət (əmək mükəlləfiyyəti) keçməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 1992-ci il 31 iyul tarixli 94 nömrəli, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 25 iyul tarixli 622 nömrəli, "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramın təsdiq edilməsi barədə" 2000-ci il 15 iyul tarixli 371 nömrəli, "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" 2000-ci il 10 avqust tarixli 383 nömrəli, "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2010-cu il 4 iyun tarixli 276 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"nin təsdiq edilməsi haqqında" 2013-cü il 11 iyun tarixli 908 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1352 nömrəli Fərmanının 9-cu hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasında icarəsinə yol verilməyən müəssisələr haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 10 avqust tarixli 431 nömrəli Qərarının birinci hissəsinin on dördüncü abzasında "səhiyyə birlikləri, idarə, müəssisə və təşkilatları" sözləri "tibb müəssisələri" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 9 mart tarixli 140 nömrəli Qərarı ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikası ərazisinin sanitar mühafizəsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bənddə "sanitar-epidemioloji idarələri" sözləri "sanitariya-epidemioloji xidmət müəssisələri" sözləri ilə əvəz edilsin;

2.2. 2.3-cü bənddə "sanitar" sözü "dövlət sanitariya nəzarəti" sözləri ilə əvəz edilsin;

2.3. 2.4-cü bəndin dördüncü abzasının ikinci cümləsində "sanitar" sözü "sanitariya nəzarəti" sözləri ilə əvəz edilsin;

2.4. 2.5-ci bəndin üçüncü cümləsində "sanitar epidemioloji xidmət" sözləri "sanitariya-epidemioloji xidmət müəssisəsi" sözləri ilə əvəz edilsin;

2.5. 2.8-ci bənddə "sanitar epidemioloji təşkilata" sözləri "sanitariya-epidemioloji xidmət müəssisəsinə" sözləri ilə əvəz edilsin;

2.6. 2.23-cü bəndin birinci abzasında "sanitar epidemioloji müəssisədə" sözləri "sanitariya-epidemioloji xidmət müəssisəsində" sözləri ilə əvəz edilsin;

2.7. 4.7-ci bəndin birinci abzasında "Sanitar epidemioloji müəssisə" sözləri "Sanitariya-epidemioloji xidmət müəssisəsi" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 oktyabr tarixli 527 nömrəli Qərarı ilə təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikasında kiçik həcmli gəmilərdən və onların dayanması üçün bazalardan (qurğulardan) istifadə Qaydaları"nın 33-cü hissəsində "sanitar" sözü "sanitariya" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 10 may tarixli 185 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların problemləri üzrə kompleks Proqram"ın 5.3-cü bəndinin onuncu abzasında "səhiyyə" sözü "tibb müəssisələri" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 may tarixli 197 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası DİN-nin Müəssisədənkənar Mühafizə xidməti haqqında Əsasnamə"nin 23-cü hissəsində "səhiyyə ocaqlarında" sözləri "tibb müəssisələrində" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 29 may tarixli 119 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 5, maddə 360; 2001, № 10, maddə 663; 2003, № 6, maddə 342; 2005, № 6, maddə 541; 2006, № 5, maddə 463; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1369; 2013, № 10, maddə 1199; 2016, № 9, maddə 1585; 2017, № 4, maddə 620; 2018, № 12 (II kitab), maddə 2736; 2021, № 7, maddə 871) ilə təsdiq edilmiş "Gənclərin ibtidai hərbi hazırlıq Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

6.1. II hissənin onuncu abzasına "Səhiyyə Nazirliyi" sözlərindən sonra ", İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri əlavə edilsin;

6.2. IV hissənin yeddinci abzasında "yerli səhiyyə orqanları" sözləri "ərazi üzrə dövlət tibb müəssisələri" sözləri ilə əvəz edilsin;

6.3. V hissənin üçüncü abzasında ", səhiyyə şöbələri" sözləri "şöbələri, ərazi üzrə dövlət tibb müəssisələri" sözləri ilə əvəz edilsin;

6.4. VI hissənin on birinci abzasında "yerli səhiyyə şöbəsi" sözləri "ərazi üzrə dövlət tibb müəssisələri" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 596; 2000, № 10, maddə 764; 2001, № 3, maddə 214; 2003, № 6, maddə 342; 2005, № 7, maddə 661, № 9, maddələr 857, 858, № 12, maddə 1244; 2006, № 1, maddə 58, № 3, maddə 291, № 4, maddə 370, № 9, maddələr 819, 821, № 10, maddələr 902, 903; 2007, № 2, maddələr 185, 188, № 5, maddə 544; 2008, № 2, maddələr 114, 129, 130, № 9, maddə 853; 2009, № 10, maddə 857; 2010, № 3, maddələr 263, 264, № 8, maddə 763, № 12, maddə 1123; 2011, № 5, maddə 449, № 7, maddə 742; 2012, № 2, maddə 180, № 7, maddə 773; 2014, № 4, maddə 459; 2016, № 7, maddə 1343, № 11, maddə 1973; 2017, № 4, maddə 610, № 5, maddə 995, № 9, maddə 1728, № 10, maddə 1913, № 12 (II kitab), maddə 2548; 2018, № 6, maddə 1348, № 9, maddə 1903, № 11, maddə 2458, № 12 (II kitab), maddə 2736; 2019, № 4, maddə 781, № 7, maddə 1319; 2020, № 4, maddə 480, № 9, maddə 1232, № 10, maddə 1273; 2021, № 3, maddə 275, № 7, maddə 875; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 13 sentyabr tarixli 260 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin 46-cı hissəsinin üçüncü abzasında "Səhiyyənin müalicə-profilaktika və sanatoriya-epidemiologiya idarələrində" sözləri "Tibb müəssisələrində, o cümlədən sanitariya-epidemioloji xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***